


# ICFM üzvlərinin 2013-cü il toplantısı

09-11 dekabr 2013-cü il tarixlərində London şəhərində Böyük Britaniyanın Sertifikatlaşdırılmış Maliyyə Menecerləri İnstitutunun (ICFM) təşkilatçılığı ilə mühasib və maliyyə menecerlərinin beynəlxalq konfransı keçirilmişdir. Bu konfransda həmişə olduğu kimi APFM xətti ilə Azərbaycandan da böyük nümayəndə heyəti iştirak etdi

Beynəlxalq mühasibat təşkilatlarının, aparıcı şirkətlərin mühasibat, vergi, maliyyə nəzarəti və iqtisadiyyatın digər sahələrinin peşəkar mütəxəssislərinin iştirakı ilə keçirilən konfransda Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının (MHBS) aktual məsələləri və standartlarda baş vermiş dəyişikliklər, dünyada iqtisadi vəziyyət, investisiya mühiti, maliyyə alətləri və digər mövzularda müzakirələr aparılmışdır. Həmçinin səfər çərçivəsində nümayəndə heyəti Böyük Britaniya parlamentində olmuş, parlament üzvləri ilə görüşlər keçirmişdir. Böyük Britaniyanın ən qədim peşəkar



qurumu olan- ICAEW- də  Keyfiyyət üzrə direktor Paul Simkins və  Böyük Britaniya



Xəzinədarlığının Nəzarət Əməliyyatları Direktoru xanım Emma Ottingerin iştirakı ilə keçirilən seminarda bazarların inkişafı, dünyada iqtisadi vəziyyət, əsas istiqamətlər, investisiya mühiti, bank sektorunda dəyişikliklər, maliyyə alətləri və s maraqlı məsələlər geniş müzakirə edilmişdir.
ICFM –Icraçı direktoru Qarri Karter çıxışında ICFM ölkə nümayəndəliklərinin ICFM Qlobal inkişafına əhəmiyyətli töhfə verdiyini qeyd etdi, bu regionlarda sertifikatlaşdırılmış mütəxəssislərin sayının daima artmasını vurğuladı. Xüsusilə o, 2013-cü ilin sentyabr ayında Bakıda keçirilmiş Mühasiblərin və Auditorların 4-cü Avrasiya Forumunun və elə həmin ilin oktyabrında Moskvada keçirilən praktik konfransın yüksək professional səviyyədə təşkilinə görə ölkə koordinatorlarına minnətdarlığını bildirdi.
Yenə də Londonun ən qədim tarixi məkanların birində-Lancaster House binasında verilən Qala-şam yeməyi bu vizitin əsas hadisəsi oldu. ICFM-in patronu Əlahəzrət Şahzadə Maykl Kent ICFM 2013-cü il üzrə nominasiyalarının qaliblərini təbrik etdi və müasir mühasibat uçotunun banisi Luka Paçolinin şərəfinə adlandırılan "Luca" fəxri kiçik heykəlini təqdim etdi 2013-cü ildə APFM Məsləhət Şurasının sədri - ARDNŞ-nin Vitse-Prezidenti Süleyman Qasımov Daxili nəzarət və auditin effektiv tətbiqi üzrə ən yaxşı məsləhətçi kimi fəxri mükafata layiq görüldü.
APFM tədris mərkəzi –Infosystem-link "İlin Tədris Mərkəzi 2013" nominasiyasının qalibi seçildi.
ICFM üzvlərinin 2013 –cü il toplantısı

HƏMÇİNİN APFM ÜZVLƏRİ DƏ MÜKAFATLARA LAYİQ GÖRÜLDÜ:

**İlin Maliyyə Meneceri 2013 /The Best Financial Manager of the Year 2013**
Eyvaz Eyvazov
Natiq Rəhimov

**İlin müəllimi 2013 /The Best Tutor of the Year 2013**
Laləzar Mehdiyeva
Rəşad Əsgərov

**İlin tələbəsi 2013 /The Best Student of the Year 2013**
İranə Qurbanova
Zeynəb Muradxanlı
Naidə Mustafayeva

VIII Henrinin iqamətgahı Hampton Court Palace- tarixi saraya ekskursiya ilə başa çatdı.
Toplantı iştirakçıları bu səfərdən çox məmnun qaldılar, onlar bir çox maraqlı və faydalı informasiya əldə etdilər və digər ölkələrdən olan həmkarları ilə görüşüb fikir mübadiləsi apardılar, eləcə də APFM- ICFM gələcək tədbirlərində də iştirak etmək arzusunu ifadə etdilər.
Biz də öz növbəmizdə bütün həmkarlarımızı ürəkdən təbrik edirik və yeni 2014-cü ildə onlara can sağlığı, xoş və firavan həyat, karyeralarında yeni nailiyyətlər arzu edirik.